# REGIONAL IQTISADI SIYASƏTIN FORMALAŞMASINDA HEYDƏR ƏLIYEV FENOMENI

*Ərəbova Könül Elnur qızı*
*Elmi rəhbər: Ruhiyyə Hüseynova, i.f.d.*
*Mingəçevir Dövlət Universiteti*

Heydər Əliyev xalqımızın yaddaşında müdrik siyasətçi, əzmkarlığı və eləcə də qətiyyətli iradəsi ilə dünyada görkəmli dövlət xadimi kimi tanınmışdır. Ulu öndər Heydər Əliyevin 1969 cu il 14 İyul-da respublikamıza rəhbərlik etməyə başladığı dövrdən etibarən respublikada mövcud olan ərazilərin qeyri-bərabər inkişafının aradan qaldırılması istiqamətində məqsədyönlü işlərin aparılmasına başlanır. Məlumdur ki,həmin dövrdə ölkəmizin tədricən inkişafını təmin etmək üçün regionların iqtisadi dirçəlməsini nəzərdə tutan dövlət proqramları realize edilirdi. Aqrar sahələrlə yanaşı, energetika, neft-kimya, yeyinti və eləcə də yüngül sahələrinin inkişafına xüsusi diqqət verilir. Yekunda respublikamızda çox iri, ittifaq əhəmiyyətli sənaye obyektləri inşa edilir. Artıq ötən əsrin 70-ci illərində Heydər Əliyevin müəyyən etdiyi hədəf və meyarlara söykənərək Dövlət Plan Komitəsinin mütəxəssisləri tərəfindən respublikanın regionlarının sosial-iqtisadi inkişafına yönəlmiş yenidənqurma işlərin proqramları hazırlanır. 1971-88-ci illərdə "Azərbaycan SSR-in məhsuldar qüvvələrinin inkişafı və yerləşdirilməsinin konsepsiyası və əsas istiqamətləri" və eləcə də "Azərbaycan SSR-in sahələrarası və regionlararası əlaqələri" və başqa bu kimi elmi araşdırmalar regionların potensialının daha səmərəli istifadəsinə kömək edib. 80-ci illərdə regionların inkişafına yönəlmiş vacib addımlardan biri Heydər Əliyevin təşəbbüsü ilə şərabçılıq, üzümçülük, pambıqçılıq və turizm sektorunun inkişafına təkan verilməsi oldu. Nəticədə ölkə gəlirləri kifayət qədər artmışdır. Ancaq illər ötdükcə Ittifaq orqanları tərəfindən qəbul olunmuş qərar və nəticələri respublikada üzümçülük sahəsinə böyük zərbə vurmuşdur. [4]

Qeyd edək ki, 80-ci illərin ikinci yarısında iqtisadiyyatımızda tənəzzül meyilləri açıq aşkar olaraq hiss olunmağa başlamışdır. 88-ci illərin sovet mərkəzi mətbuat orqanlarının təqdim etdiyi məlumatlara əsasən, əhalinin yaşayış durumuna görə ən ağır vəziyyətin Azərbaycanda olduğu göstərilirdi. Qeyd edək ki, uzun illər regionlar üzrə formalaşmış iqtisadi ixtisaslaşma mənzərəsi pozulduğu üçün regionlar arası iqtisadi əlaqələr demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Regionların maliyyələşdirilməsində yaranmış gərginliklər regional idarəetmə sisteminin fəaliyyətinde ağır problemlərin yaranmasına səbəb olmuşdu. Müstəqlliyimizin ilk illərində ölkə iqtisadiyyatı tənəzzülə uğramışdır. 1994-cü ildə Azərbaycan dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsini" imzaladı. Vurğulayaq ki, milli mənafelərimiz nəzərə alınaraqdan respublikanın inkişaf strategiyası hazırlanmışdı. Bu strategiyada həlledici yer regionların davamlı inkişafına təmin edilməsi oldu. 90-cı illərin ikinci yarısında regionlarda yaranmış ən ağır sosial problem işsizlik idi. Bununlada yeni iş yerlərinin açılması regionların inkişafında əsas hədəf olmuşdu . Qeyd edək ki, yeni iş yerlərinin açılması üçün təbii ki, maliyyə resursları tələb olunurdu. Ümumiyyətlə bu istiqamətdə məsələnin həlli üçün neft strategiyasından

irəli gələrəkdən Dövlət Neft Fondu yaradılmışdır. Artıq 2000- ci ildən başlayaraq neft gəlirləri toplanmağa başladı. Beləcə əlavə maliyyə resurslarının əldə edilməsi respublikanın ümumi sosial- iqtisadi məsələlərin həllində, eləcə də regionların davamlı inkişafının təmin edilməsində yeni imkanlar açdı. Heydər Əliyevin ölkəmizdə rəhbərlik etdiyi dövrdə onun yeritdiyi cəsarətli və həmçinin uzaqgörən siyasəti Azərbaycanı tənəzzülden və böhrandan davamlı inkişaf yoluna çıxartmışdı. O, müstəqil Azərbaycan dövlətinin davamlı inkişafı naminə bilik və bacarıqlarının, əhalinin yaşayış səviyyəsinin qalxmasınada və ölkəmizin mütərəqqi müasir inkişaf trendlerinə uyğun dəyişməsində mühüm rol oynamışdır. Heydər ƏLİYEV Fondunun təşəbbüsü ilə "Regional inkişaf" İctimai Birliyi (RİİB) təsis edilib. Burada başlıca məqsəd ölkənin ictimai-siyasi, sosial-mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğunda daha fəal layihələr həyata keçirməkdən ibarətdir. Eyni zamanda bu İctimai birlik regionlarda vətəndaşlarla bələdiyyə və dövlət orqanları arasında əlaqələrin qurulması ve həmçinin ictimai nəzarət mexanizminin gücləndirilməsi istiqamətində fəaliyyət göstərəcək. Həmçinin qarşıdakı illərdə Fondun fəaliyyətində əsas istiqamət regionlarda müxtəlif layihələrin icrasına yönələcəkdir.[3]

Regionların hələ də tam istifadə edilməmiş zəngin təbii-resurs və insan potensialının təsərrüfata cəlb edilməsi bölgələrimizin inkişafında əsas hədəf olaraq qalmaqdadır. Bu istiqamətdə mövcud problemlərin həlli üçün, ulu öndər Heydər Əliyevin davamçısı olan Prezident İlham Əliyev 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafına yönəlmiş dövlət proqramlarının həyata keçirilməsini xüsusi nəzarətdə saxlayır.

Respublikada vahid regional inkişaf siyasətinin həyata keçirilməsində əsas problem ölkə ərazisinin 20 faizinin 1993-2020-ci illər ərzində Ermənistan tərəfindən işğal edilməsi olmuşdu. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Ordumuzun rəşadəti sayəsində Vətən müharibəsində qazanılan Qələbə torpaqlarımızın işğalına son qoydu. Regional iqtisadi inkişaf siyasətində köklü dəyişiklərin aparılması qaçılmaz oldu. Ölkəmizin gələcək sosial-iqtisadi inkişafında müəyyənləşən yeni vektorlara uyğun olaraq, respublikanın yeni ərazi-inzibati bölgüsündə 14 iqtisadi-coğrafi rayon yaradıldı. İşğaldan azad olunmuş ərazilərdə, ölkənin regional inkişaf strategiyasından irəli gələrək, Şərqi Zəngəzur və Qarabağ iqtisadi-coğrafi rayonlarının sərhədləri müəyyən olundu. [3]

“Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq, bölgələr üzrə müvafiq obyektlərin istifadəyə verilməsi və yeni iş yerlərinin açılması üçün müvafiq maliyyə vəsaiti ayrılıb. İşğaldan azad edilmiş ərazilərdə, erməni barbarları tərəfindən törədilən vəhşiliklər və dağıdıcı əməllər nəticəsində ölkəmizə dəyən maddi və mənəvi ziyan milyardlarla manat ölçülür. Bu ərazilərdə bərpa işlərinin (nəqliyyat infrastrukturu, qaz, su və enerji təchizati, yaşayış tikintisi, sosial obyektlərin yaradılması və s.) aparılması üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən, respublika büdcəsindən 2021-2022-ci illərdə 5 milyard manata yaxın vəsaiti ayrılıb.

Respublikamızda ardıcıl həyata keçirilən regional inkişaf siyasəti bir daha onu təsdiqləyir ki, ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə onun yeritdiyi uzaqgörən və cəsarətli siyasət Azərbaycanı tənəzzüldən və böhrandan davamlı inkişaf yoluna çıxartmışdır. [2]

Bu il Azərbaycanda H.Əliyev ili qeyd olunur. Mingəçevir Dövlət Universitetində Ulu Öndərin ideologiyasının təbliği istiqamətində davamlı işlər görülür. Məhz H.Əliyev ideologiyasının təbliği və təşviqi sayəsində Azərbaycan məğlub ölkədən qalib ölkəyə, dinamik inkişaf edən ölkəyə çevrilmişdir. Əminik ki, ümummilli liderimizin uğurlu daxili və xarici siyasətinin davamçısı Prezident İlham Əliyev tərəfindən Azərbaycan iqtisadi cəhətdən daha da qüdrətlənəcək, sürətli regional iqtisadi inkişafa nail olacaqdır.

***Ədəbiyyat:***


1. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Bakı, 2018
2. Ulu öndər Heydər Əliyev və regional inkişaf siyasəti. URL: https://azertag.az/xeber/Ulu_onder_Heyder_Aliyev_ve_regional_inkisaf_siyaseti-2340053
3. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Regional İnkişaf" İctimai Birliyi yaradılıb. URL: https://riib.az/site/news/1-heyder-eliyev-fondunun-tesebbusu-ile-regional-nkisaf-ctimai-birliyi-yaradilib-
4. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli. URL: http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118928.htm


## AKADEMİK SAHİBKARLIQ EKOSİSTEMİNİN XÜSUSİYYƏTLƏRİ


*Əzizli Nurlan Nizami oğlu*
*Elmi rəhbər: İbrahimov Müslüm Azad oğlu, i.e.d, professor*
*Mingəçevir Dövlət Universiteti (Azərbaycan)*


Akademik sahibkarlıq ( ing Academic entrepreneurship) mürəkkəb ekosistemdir. Çünki bu ekosistem kommersiya nəticələrinin yaradılmasında və davam etdirilməsində bir sıra əhəmiyyətli maneələr və ya çətinliklərlə üzləşir. Əsas problemlərdən biri ondan ibarətdir ki, universitet tədqiqatçıları adətən bazar və ya tələb tərəfi haqqında məlumatsızdırlar ki, bu da sırf akademik sahədən kənardadır. İnkişaf etməkdə olan və ya inkişaf etmiş ölkələr kontekstində universitet tədqiqatçılarının sənaye biliklərinə çıxışı daha da çətin ola bilər, çünki kommersiyalaşdırma üzrə tərəfdaş firmaların zəif mənimsəmə qabiliyyətinə görə universitetlər tez-tez laboratoriya innovasiyalarından kənarda gələcək inkişaf və ya problemlərin həlli istiqamətində işlər görməlidirlər. Universitet tədqiqatçıları öz bilik çatışmazlığını necə aradan qaldıra və bazara daha yaxşı təsir göstərə bilərlər? Belə bir problemlə bağlı sorğular bir neçə müəllifi universitet alimləri və sənaye praktikantları arasında iki istiqamətli bilik transferinin vacibliyini vurğulamağa vadar etmişdir. Akademik sahibkarlıq ümumiyyətlə texnologiya və ya biliyin universitetdən sənayeyə (U-I) ötürülməsi prosesi olsa da, akademik sahibkarların sənayedən öyrənmələri, yəni biliklərin sənayedən universitetə (I-U) ötürülməsi əvəzedilməz məsələdir. Tərs bilik axınları (I-U) (sənayedən universitetə) geniş yayılmış üsuldur. Çünki akademik sahibkarlar kommersiyalaşdırılmaq üçün daha yüksək potensiala malik yeni ideyalar yaratmaq və bazar tələblərinə uyğun olaraq yeniliklərini